*Qədim Diyar*
May 2026, Cild. 8, Say 5, s. 333–337
*Ancient Land*
May 2026, Vol. 8, Issue 5, pp. 333–337
DOI: https://doi.org/10.36719/2706-6185/60/333-337

# Məktəbdaxili qiymətləndirmə və təlim keyfiyyəti: Müasir yanaşmalar

**Bəlqız Musayeva**

***Xülasə.*** *Müasir təhsil sistemində qiymətləndirmə artıq yalnız şagirdin biliyini yoxlamağa xidmət edən vasitə kimi deyil, onun inkişafını dəstəkləyən və öyrənmə prosesini istiqamətləndirən mühüm pedaqoji mexanizm kimi qəbul olunur. Qiymətləndirmə təkcə yekun nəticəni müəyyən etmir, eyni zamanda şagirdin bilik, bacarıq və kompetensiyalarının inkişaf səviyyəsini izləməyə imkan yaradır. Tədqiqat çərçivəsində məktəbdaxili qiymətləndirmənin əsas növləri olan diaqnostik, formativ və summativ qiymətləndirmə təhlil edilmişdir. Xüsusilə formativ qiymətləndirmə və rəyin şagird nailiyyətlərinə göstərdiyi müsbət təsir ön plana çəkilmişdir. Müasir pedaqoji yanaşmalarda rəy şagirdin inkişafını istiqamətləndirən, motivasiyasını artıran və öyrənmə fəaliyyətini daha məqsədyönlü edən vacib vasitə hesab olunur. Bununla yanaşı, konstruktivist yanaşma və Lev Vıqotskinin sosial öyrənmə nəzəriyyəsi əsasında rəyin öyrənmə prosesindəki rolu araşdırılmışdır. Müasir texnologiyaların tətbiqi qiymətləndirməni daha interaktiv və fərdiləşdirilmiş etmiş, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə isə şagirdlərdə reflektiv düşünmə, əməkdaşlıq və müstəqil öyrənmə bacarıqlarının formalaşmasına şərait yaratmışdır*

***Açar sözlər:*** *qiymətləndirmə, məktəbdaxili qiymətləndirmə, formativ qiymətləndirmə, summativ qiymətləndirmə, diaqnostik qiymətləndirmə, rəy, konstruktivizm, özünüqiymətləndirmə, qarşılıqlı qiymətləndirmə, təlim prosesi, pedaqoji yanaşma, şagird inkişafı*

---

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: musayevabalqiz@gmail.com
Daxil oldu: 20 Yanvar 2026; Qəbul edildi: 8 May 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# In-School Assessment and Teaching Quality: Modern Approaches

**Balgız Musayeva**

***Abstract.*** *In the modern education system, assessment is no longer considered merely a tool for testing students' knowledge, but rather an important pedagogical mechanism that supports students' development and guides the learning process. Assessment not only determines final outcomes, but also allows teachers to monitor the development of students' knowledge, skills, and competencies. Within the framework of the research, the main types of school-based assessment diagnostic, formative, and summative assessment were analyzed.*

*Particular attention was paid to the positive impact of formative assessment and feedback on student achievement. In contemporary pedagogical approaches, feedback is regarded as an essential tool that directs students' progress, increases motivation, and makes learning more purposeful. In addition, the role of feedback in the learning process was examined within the context of constructivist approaches and the social learning theory of Lev Vygotsky. The integration of modern technologies has made assessment more interactive and individualized, while self-assessment and peer assessment have contributed to the development of students' reflective thinking, collaboration, and independent learning skills.*

**Keywords:** *assessment, school-based assessment, formative assessment, summative assessment, diagnostic assessment, feedback, constructivism, self-assessment, peer assessment, learning process, pedagogical approach, student development*

---

Baku Slavic University, Master's student, Baku, Azerbaijan
E-mail: musayevabalqiz@gmail.com
Received: 20 January 2026; Accepted: 8 May 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Müasir dövrdə təhsilin keyfiyyətinin artırılması birbaşa olaraq qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlıdır. Ənənəvi yanaşmalardan fərqli olaraq, günümüzün pedaqoji tələbləri qiymətləndirməni sadəcə bir nəzarət aləti deyil, şagirdin fərdi potensialını üzə çıxaran və təlim prosesini stimullaşdıran fundamental bir proses kimi qəbul edir. Təhsil paradiqmasının dəyişməsi nəticəsində qiymətləndirmə artıq şagird fəaliyyətinin "hökmü" deyil, onun inkişaf trayektoriyasının müəyyənləşdirilməsi üçün strateji bir vasitəyə çevrilmişdir. Bu baxımdan, məktəbdaxili qiymətləndirmənin konseptual əsaslarını və onun müasir formalarını dərindən təhlil etmək, təlimin effektivliyini artırmaq üçün xüsusi əhəmiyyət kəsb edir.

Klassik tədris metodlarında qiymətləndirmə mexanizmi şagirdin topladığı informasiyanı ölçməkdən ibarət idi. Burada əsas diqqət təlimin gedişatına deyil, onun yekunlaşdığı nöqtəyə yönəlirdi. Test və imtahan nəticələri əsas götürüldüyü üçün fərdi inkişaf və şagirdin qarşılaşdığı maneələr çox vaxt analiz edilmirdi. Beləliklə, qiymətləndirmə sadəcə bir inzibati nəzarət aləti funksiyasını yerinə yetirirdi. Günümüzdə isə bu yanaşma öz yerini daha produktiv bir modelə verib. Yeni təhsil paradiqmasında qiymətləndirmə artıq passiv bir ölçmə vasitəsi deyil, şagirdin potensialını üzə çıxaran dinamik bir mexanizmdir. Müasir yanaşmaya görə, bu proses həm müəllimə, həm də şagirdə öyrənmənin keyfiyyətini artırmaq üçün lazımi istiqaməti verməlidir. Bu yeni yanaşmaya görə, qiymətləndirmə təlim prosesindən ayrı bir mərhələ kimi deyil, onun ayrılmaz tərkib hissəsi kimi qəbul olunur. Şagirdin öyrənmə fəaliyyəti davam etdiyi müddətdə qiymətləndirmə də paralel şəkildə həyata keçirilir və bu yanaşma onun inkişaf səviyyəsini daha obyektiv şəkildə izləməyə imkan yaradır. Müasir pedaqoji baxışlarda qiymətləndirmə artıq sadəcə yoxlama vasitəsi deyil, təlim prosesini istiqamətləndirən əsas mexanizmlərdən biri hesab edilir. Bu prosesdə müəllim yalnız nəticəni qiymətləndirən şəxs deyil, eyni zamanda şagirdin öyrənmə yolunu müşahidə edən və ona inkişaf istiqaməti göstərən pedaqoji bələdçi rolunu oynayır (Yusifov, 2015, s. 42–45).

Son illərdə aparılan tədqiqatlar göstərir ki, təlim prosesində formativ qiymətləndirmədən məqsədyönlü istifadə şagirdlərin akademik nəticələrinə müsbət təsir göstərir (Wiliam, 2018, s. 48–56). Bu yanaşma vasitəsilə müəllim yalnız şagirdin mövcud bilik səviyyəsini deyil, həm də öyrənmə prosesində qarşılaşdığı çətinlikləri və inkişaf potensialını müəyyənləşdirə bilir.

**Tədqiqat**

Qiymətləndirmə sisteminin bugünkü müasir formaya gəlib çatması təhsil sahəsində uzun illər davam edən dəyişikliklər və pedaqoji yanaşmaların inkişafı ilə bağlıdır. Əvvəlki dövrlərdə qiymətləndirmə əsasən şagirdin nə qədər məlumat mənimsədiyini müəyyənləşdirmək və nəticələri yoxlamaq məqsədi daşıyırdı. Bu səbəbdən proses daha çox nəzarət və qiymətvermə xarakteri ilə seçilirdi. Zaman keçdikcə təhsildə yeni yanaşmalar meydana çıxdı və qiymətləndirməyə münasibət dəyişməyə başladı. Artıq diqqət yalnız yekun nəticəyə deyil, şagirdin öyrənmə prosesinə, inkişaf dinamikasına və əldə etdiyi bacarıqlara yönəldi. Müasir təhsil yanaşmalarında qiymətləndirmə şagirdin öyrənməsini istiqamətləndirən və onu dəstəkləyən vacib mexanizm kimi qəbul edilir. Bu modeldə hər bir şagirdin fərdi xüsusiyyətləri, öyrənmə tempi və ehtiyacları nəzərə alınır, müəllim isə qiymətləndirmə nəticələrindən təlimin daha səmərəli təşkili üçün istifadə edir (OECD, 2024, s. 15–18).

Bu inkişaf mərhələlərinin nəticəsində qiymətləndirməyə münasibət də əhəmiyyətli dərəcədə dəyişmişdir. Artıq qiymətləndirmə yalnız müəyyən vaxtlarda aparılan formal yoxlama kimi deyil, təlim prosesi boyunca davam edən və şagirdin inkişafını mərhələli şəkildə izləyən dinamik pedaqoji fəaliyyət kimi qəbul olunur. Başqa sözlə, qiymətləndirmə şagirdin öyrənmə yolunu dərsin hər mərhələsində müşahidə etməyə və onun inkişaf istiqamətlərini müəyyənləşdirməyə imkan yaradan fasiləsiz proses xarakteri daşıyır. Məktəbdə təlim prosesinin səmərəli təşkili və şagirdlərin inkişafının düzgün izlənməsi məqsədilə məktəbdaxili qiymətləndirmə mühüm pedaqoji vasitə kimi tətbiq olunur. Bu proses müəllim tərəfindən tədris müəssisəsi daxilində həyata keçirilir və əsas diqqət şagirdin hansı inkişaf mərhələsində olduğunu müəyyənləşdirməyə, öyrənmə zamanı yaranan çətinlikləri vaxtında görməyə və dərsin gedişini həmin ehtiyaclara uyğun şəkildə qurmağa yönəlir. Başqa sözlə, qiymətləndirmə yalnız nəticəni qeyd etmir, həm də təlimin istiqamətini formalaşdıran davamlı bir proses kimi çıxış edir.

Struktur baxımından məktəbdaxili qiymətləndirmə üç əsas komponent üzərində qurulur: diaqnostik, formativ və summativ qiymətləndirmə. Bu mərhələlərin hər biri fərqli funksiyanı yerinə yetirsə də, onların hamısı vahid məqsədə – tədrisin keyfiyyətinin artırılmasına xidmət edir və bir-birini tamamlayaraq bütöv bir sistem yaradır. Tədrisin ilkin mərhələsində həyata keçirilən diaqnostik qiymətləndirmənin əsas məqsədi şagirdlərin əvvəlki bilik səviyyəsini müəyyənləşdirməkdir. Şagirdlərin hansı hazırlıq səviyyəsində olduğunu anlamaq üçün dərsə başlamazdan əvvəl bu tip yoxlamalar aparılır və nəticələr müəllimə sinfin ümumi vəziyyəti barədə aydın təsəvvür yaradır. Bu məlumat əsasında dərs planı daha real ehtiyaclara uyğun şəkildə tənzimlənir və şagirdlər arasındakı fərqlər nəzərə alınaraq fərdiləşdirilmiş yanaşma formalaşdırılır.

Təlim prosesi boyunca davam edən formativ qiymətləndirmə isə daha çevik və dinamik xarakter daşıyır. Şagirdin zamanla hansı irəliləyişlərə nail olduğunu müşahidə etmək və onun öyrənmə yolunu düzgün istiqamətləndirmək bu mərhələnin əsas məqsədidir. Burada müəllim sadəcə qiymət verməklə kifayətlənmir, şagirdlə davamlı əks-əlaqə qurur, onun cavablarını və fəaliyyətini təhlil edir, eyni zamanda yol verilən səhvlərin səbəblərini izah edərək inkişaf üçün konkret istiqamətlər göstərir. Beləliklə, səhvlər qiymətləndirmənin sonu deyil, əksinə, öyrənmənin bir hissəsinə çevrilir. Müasir dövrdə Kahoot, Quizizz və Wordwall kimi rəqəmsal platformaların təhsildə tətbiqi qiymətləndirmə prosesini daha interaktiv və oyunlaşdırılmış formaya çevirmişdir. Bununla yanaşı, bu texnoloji dəyişikliklərin nəzəri əsasları Lev Vygotsky-nin sosial konstruktivizm yanaşması ilə izah olunur. Bu yanaşmaya görə, biliklər fərdi şəkildə deyil, sosial qarşılıqlı təsir və fəal iştirak nəticəsində formalaşır. Eyni zamanda, qiymətləndirmə artıq yalnız ölçmə vasitəsi kimi deyil, öyrənmə prosesinin ayrılmaz hissəsi kimi çıxış edir.

Müasir təlim mühitində şagirdə verilən rəy artıq yalnız "düzdür–yanlışdır" tipli qısa qiymətləndirmə kimi başa düşülmür. O, daha çox şagirdin harada dayandığını görməsinə və növbəti addımını planlaşdırmasına kömək edən bir istiqamətverici vasitə kimi qəbul olunur. Son illərdə aparılan araşdırmalar da göstərir ki, səmərəli rəy şagirdin hazırkı bilik səviyyəsi ilə qarşısına qoyulan məqsəd arasında əlaqə qurur və bu boşluğu necə doldura biləcəyinə dair ona yol göstərir. Bu proses şagirdin öz öyrənməsinə daha məsuliyyətli yanaşmasına, səhvlərini sadəcə nəticə kimi deyil, inkişaf üçün imkan kimi görməsinə şərait yaradır. Nəticə etibarilə, rəy yalnız qiymətləndirmə aktının bir hissəsi deyil, öyrənməni canlı saxlayan və onu irəli aparan əsas pedaqoji dəstək vasitələrindən biridir (Hattie və Clarke, 2019, s. 52–58).

Bununla yanaşı, tədris prosesi vahid bir mərhələdən ibarət deyil, əksinə, ardıcıl və qarşılıqlı əlaqəli mərhələlərin vəhdətidir. Bu baxımdan, yekun nəticə həm başlanğıcda aparılan diaqnostik qiymətləndirmənin, həm də proses boyu həyata keçirilən formativ izləmələrin məntiqi nəticəsi kimi formalaşır. Beləliklə, summativ qiymətləndirmə yalnız son mərhələ deyil, bütün öyrənmə prosesinin ümumiləşdirilmiş ifadəsidir.

## Nəticə

Məktəb daxilində həyata keçirilən qiymətləndirmə sistemi şagirdin öyrənmə trayektoriyasını izləmək və təlimi fərdiləşdirmək məqsədi daşıyır. Bu prosesdə şagird artıq passiv informasiya daşıyıcısı kimi deyil, bilikləri aktiv şəkildə quran tədqiqatçı subyekt kimi çıxış edir. Müəllim isə onun öyrənmə fəaliyyətini yönləndirən və inkişafını dəstəkləyən fasilitator rolunu oynayır. Eyni zamanda, rəyin effektivliyi onun operativliyindən, yəni şagird mövzunu unutmazdan əvvəl təqdim olunmasından birbaşa asılıdır. Vaxtında verilmiş rəy səhvlərin möhkəmlənməsinin qarşısını alır və öyrənmədə çevik düzəlişlərə imkan yaradır. Əks halda, gecikdirilmiş rəy öz inkişafetdirici təsirini qismən itirə bilər.
Bundan əlavə, rəy yalnız akademik deyil, həm də psixoloji təsirə malikdir. Dəstəkləyici və istiqamətləndirici rəy şagird üçün silsiləvi inkişaf mühiti yaradır, onun özünəinamını gücləndirir və öyrənməyə marağını artırır. Əksinə, qeyri-konkret və ümumi tənqidlər motivasiyanın azalmasına səbəb ola bilər.

Nəticə etibarilə, müasir pedaqoji yanaşmalarda rəyin əsas funksiyası keçmiş nəticəni qiymətləndirməkdən daha çox gələcək inkişafı istiqamətləndirməkdir. Bu baxımdan rəy "nə səhvdir?" sualından çox "növbəti addım nə olmalıdır?" sualına cavab verməlidir.

## Ədəbiyyat

1. Andersson, C., & Palm, T. (2017). The impact of formative assessment on student achievement. *Learning and Instruction, 49*, 92–102.
2. Andrade, H., & Brookhart, S. M. (2016). The role of classroom assessment in supporting self-regulated learning. In *The enabling power of assessment* (pp. 293–309). Springer.
3. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. (2020). *Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulum)*.
4. Azərbaycan Respublikası. (2023). *Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu* (yenilənmiş nəşr).
5. Brookhart, S. M. (2016). *Rubrics for formative assessment and grading*. ASCD.
6. Brookhart, S. M. (2023). *Classroom assessment essentials*. ASCD.
7. Brown, G. T. L., & Harris, L. R. (2016). *Handbook of human and social conditions in assessment*. Routledge.
8. Furtak, E. M., et al. (2016). Teachers' formative assessment abilities and their relationship to student learning. *Instructional Science, 44*(3), 267–291.

9. Heitink, M. C., et al. (2016). A systematic review of prerequisites for implementing assessment for learning. *Educational Research Review, 17*, 50–62.
10. Kingston, N., & Nash, B. (2019). Formative assessment: A meta-analysis and a call for research. *Educational Measurement: Issues and Practice, 38*(3), 13–24.
11. Nitko, A. J., & Brookhart, S. M. (2018). *Educational assessment of students* (8th ed.). Pearson.
12. OECD. (2024). *Using formative assessment and feedback: Unlocking high-quality teaching*. OECD Publishing.
13. Prompiengchai, S., Narreddy, C., & Joordens, S. (2025). *A practical guide for supporting formative assessment and feedback using generative AI*.
14. Wiliam, D. (2018). *Embedded formative assessment* (2nd ed.). Solution Tree Press.